

# Səsə, sözə hesablanan ömür

*("Bu gün dünəndən başlayır" silsiləsindən)*

***İntiqam Mehdizadə***

Mən onu az tanıyırdım. Adda-budda şahidi olduğum çıxışlarından, telekanallardakı seyrək görüntülərindən. Gənc idi və mən də Azərbaycan radiosunun Gənclik və idman redaksiyasının redaktoru olduğuma görə günlərin bir gündə onu aparıcısı olduğum "Axtarış" proqramına dəvət elədim. Çox səmimi, ürəyə yatımlı bir söhbətimiz alındı. Təbii ki, onun ard-ardınca dilə gətirdiyi poetik nümunələrin sayəsidə. Arada ona belə bir sual da ünvanlamışdım ki, o ağır illərdə ailəliklə didərgin düşərkən Laçında nəyiniz qaldı? Nə desə yaxşıdı, dedi əvvəla Laçında Laçın boyda nisgilim qaldı. Bir də ki, biz ordan çıxanda həyətyanı sahəmizdə bir qalaq çay daşı vardı, atam almışdı ev tikə bizimçün. Ən çox da bu gün əsirlikdə qalan o daşların xiffətin çəkirəm. Kaş salamat qalalar, günlərin bir günü yurda qayıdıbanı onları gün işığına çıxarıb arzularımızdakı o evi ucaldaq.

O cavabıyla da ürəyimin ən dərin guşəsində yer eləd bu qız. Sonra da Mədəniyyət və İncəsənət Univrsitetindəki birgə əməkdaşlığımız - mən Mətbuat katibi o isə Səhnə danışığı kafedrasında səhnə danışığı üzrə müəllim qismində. Və bir də bu qədim sənət məbədində tez - tez baş tutan tədbirlərdəki görüşlərimiz, onun sürəkli alqışlarla qarşılanan ifaları, mənimssə həmin toplantılar barədə kütləvi informasiya vasitələrinə yazılar ötürməyim...

Onu hamı çox istəyirdi. Müəllim həmkarları, dərs dediyi tələbələr də. Həmin sevgilərin işığında mən ona yanaşıb daha bir müsahibə aparmaq istədim. Razılaşdı və mən suallarımı ona yazılı şəkildə təqdim elədim. Məndən beşbətər o qədər təvazökardı ki, illəri illərə caladı, ondan yaşca böyük, təcrübəli sənətkarlar duradura fikir və düşüncələrini sənətsevərlərlə bölüşməyə cəsarət eləmədi. Və nəhayət 45 yaşın kəndarında mənim təkidli xahişlərimlə həmin suallara əlavə elədiyim daha bir neçəsinə cavab verməyə onu razı sala bildim. Söhbət görkəmli bədii qiraət ustası, sənətşünaslıq üzrə fəlsəfə doktoru Zülfiyyə Eldar qızından gedir. İndi həmin müsahibədir ki, diqqətinizə yetirirəm.

**- Texniki tərəqqinin bu çağında, günümüzdəki aramsız, həddən ziyadə çeşidli informasiya bolluğunda bədii qiraətə ehtiyac varmı, a Zülfiyyə xanım?**

- Bədii qiraət böyük sənətdir. Böyük sənətəsə texniki tərəqqi olmur nə olur olsun, daim ehtiyac duyulacaq. Bədii qiraət nədir? İncəsənətin digər növləri kimi geniş tamaşaçı-dinləyici kütləsinin ideya-estetik tərbiyəsində əvəzsiz rol oynayan bir sənət növü. Bədii qiraət böyük emosional təsir gücünə malikdir. O, insanları canlı, bədii sözün hesbına mıöhtəşəm sənət nümunələriylə tanış edir, insanlarda gözəl hisslər oyadır,bədii zövqü dolğunlaşdırır,doğma dilin zənginliyini, əsrarəngizliyini car çəkir. İndi düşünün, bədii qiraətə ehtiyac varmı? Əlbəttə, var. İnsanlar ülvi hisslərsiz robota bənzərdi. Qiraətçi məhz söz vasitəsilə insanları sevinməyə, kədərlənməyə, onlarda məhəbbət, nifrət hissini doğurmağa qadirdir. Canlı söz əzab da verər, insanı ümidlə qanadlandırıb, onun qəlbində yüksək arzular, işıqlı ideallar doğura bilər. Təbii ki, söhbət peşəkar qiraətdən və qiraətçidən gedir.

**- XXI əsrin Azərbaycanında qiraətçi öz dinləyicilərinin diqqətini çəkmək, özünü onlara qəbul etdirmək üçün təbii ki, küllü miqdarda sənət nümunələri arasından seçim etməlidir. Bu seçimdə nələrə üstünlük verməlidir ki, xalqın müəyyən hissəsini razı sala bilsin?**

- Aha, çox maraqlı məqamdı. Mən öz təcrübəmdən bir misal çəkib bu sualınıza cavab verəcəm. Qane etməsə yenə bu suala qayıdarıq.

Bu yaxınlarda dəyərli şairimiz Musa Yaqubun 80 illiyi ilə bağlı bir tədbirə dəvət aldım. Səhv etmirəmsə, mən sizi də o tədbirdə gördüm. Səhnədə olanda hər kəsi tamaşaçı zalında görə bilirəm. Mən orda şairin iki şeirini səsləndirdim. Birinin üstündə dayanacam, o birisi lirika idi, sevgi şeiri.

Dediyim "Çətindir" şeiri idi. Bu şeiri dinləyən hər bir kəsin həyatında o şeirdəki "qəhrəmanlar", yəni məqamlar var. Ola bilməz ki, olmasın. Vəzifəsindən, dilindən, dinindən asılı olmayaraq insan həyatda hər cür hadisələrlə rastlaşır. Nadanlıqla, cahilliklə, haqqsızlıqla, riyakarlıqla, yaltaqlıqla və s. Deməli, bəşəri və məhəlli mövzular var. Lazımdır ki, bədii qiraətçi bəşəri mövzulara üz tutsun. Məsələn, müharibə bəşəri mövzudur, məhəbbət bəşəri mövzudur.

Mən o tədbirdən sonra çoxlu məktub aldım. Məktub deyəndə, facebookda şəxsi mesaj qutusuna yazdılar. Hətta tədbir bitməmiş mənə dedilər ki, səhnə arxasında kimsə sizi axtarır. Bir ziyalı özünü hansısa rayonun müstəntiqi kimi təqdim etdi. Mənə dedi ki, mən tədbirin bitməsini gözləyə bilmədim. Sizə öz təşəkkürümü bildirirəm. Qiraət haqda çox söz dedi... Bilirsiz İntiqam müəllim, biz elə duyğulu, hissiyyatlı tamaşaçılarla çox rastlaşırıq. Hələ yaşamağa dəyər. Bədii qiraət heç vaxt lazımsız sənət olmayacaq.

**- Bəs kütlənin bayaq dediyim kimi, o hissəsinin zövqündən xəbər tutmaq istiqamətində qiraətçi nə etməli, hansı fəaliyyətdə bulunmalıdır?**

- İntiqam müəllim, axı biz də bizə qulaq asanlarla bir zamanda, bir dövrdə, bir cəmiyyətdə yaşayırıq. Ona görə bu çox asan məsələdir. Yenə də qiraətçi ancaq seçim üzərində dayanmalıdır. Bu istər klassik ədəbiyyatda, istərsə də müasir ədəbiyyatda mümkündür. Sadəcə yaxşıların yaxşısını seçib onu təqdim etməlidir qiraətçi. Məsələn: M.Araz poeziyasından bir nümunə götürək. Bədii cəhətdən çox güclü poeziya nümunəsidir.

***Söz verdim, söz adlı dəfinə verə,***
***Tək bircə ölümsüz qərinə verə,***
***Umdum nə verdi ki, küsdüm nə verə?***
***Mən belə dünyanın nəyindən küsüm?***
***Çaydı dəhnəsində xırsız əjdaha,***
***Gecəsi salamat çıxmaz sabaha.***
***İti bazarında atından baha,***
***Mən belə dünyanın nəyindən küsüm?***
***Olsan öz haqqının köləsi belə,***
***Əri öz içində öləzi belə,***
***Ondan inciyənin beləsi, belə....***
***Mən belə dünyanın nəyindən küsüm.***

Sonuncuda şair taleyi ilə barışır. Bu əsər hansı zamanda, hansı qərinədə, hansı dövrdə olsa belə həmişə aktual olacaq.

**- Zaman keçir, dövran dəyişir, dünən sizə qiraətdən dərs keçən müəllimlərinlə bu günümüzün axarından aldığınız dərslər, təlimlər arasında nə fərqlər görüb hiss edirsən və bu mənada axtarışlar aparırsanmı?**

- Sizə bir söz deyim. Bəzi sənət adamlarından fərqli olaraq mən, tənqidə dözümlüyəm. Tərifdən çox tənqid eşitmək istəyirəm. Bilirsiz niyə? İnanın səmimiyyətimə. Bunu məni tanıyan sənət dostlarımdan eşidə bilərsiz. Mən gözəl, dəyərli bədii qiraətçimiz Nadir Hüseynovla dostam. Amma indiyə kimi bir dəfə də olsun görməmişəm ki, hardasa mən çıxış edəndən sonra zəng vurub desin ki, əla çıxış elədin. Ancaq bir cümlə deyər: təbrik edirəm. Bütün bunlara baxmayaraq, mən onu özümə dost hesab edirəm. Çünki sənətin bütün incəliklərini bilir, istəyir ki, mən yaxşı bədii qiraətçi olum. Özü heç vaxt özünə bədii qiraət ustası demir. Mən də ona baxıb demirəm. Ona görə də daim civə kimi axtarışdayam. Hamıya qulaq asıram. Həsən Əbluca, Mikayıl Mirzəyə, çox nadir tapılsa da, Həsənağa Salayevin monoloqlarına, Səməndər Rzayevin ecazkar səsinə, Hamlet Xanızadəyə, Fuad Poladova, Fəxrəddin Manafova, bir sözlə hamıya. Amma istəmirəm ki, kiməsə bənzəyim. İstəyirəm özüm olum, öz duyğularım, öz hissiyatımla.

**- Biri var qiraətçi, biri də var onun üçün xam material istehsal edən təbəqə - yazıçılar, şairlər və s. Onlardan tələbin nədir?**

- Tələb deyəndə, tələb edə bilmərəm. Sadəcə istəyimi deyə bilərəm. Böyük rus yazıçısı N.V.Qoqol deyirdi ki, "şairlər haqqında aydın rəyi yalnız gözəl bədii qiraət təyin edər. Amma aydın məsələdir ki, bədii əsəri qabiliyyət sahibi olan bir insan, əsərdə başqalarının seçə bilmədiyi incəlikləri camaata çatdırmağa qadir olan şəxs oxumalıdır."

Bir də ölməz şairimiz Bəxtiyar Vahabzadə deyir ki:

***şair zəmanənin, əsrin vicdanı***
***Şair tarixlərin şərəfi, sanı,***
***Şair bu dünyaya zamanın sözü***
***Şair həqiqətin, haqqın güzgüsü.***

Şairlər, yazıçılar zamanın sözünü deyən əsərlər yaratmalıdır. Həqiqətin, haqqın güzgüsü olan əsərlər. Bir də səmimi olmalıdırlar. Baxın bu şeirə:

***Allah, nə var, nə yox?***
***Məndən nə xəbər var?***
***Gecələri özüm sayaram,***
***Üzümə açılacaq neçə səhər var?***
***Bəyənəcəksənmi məni?***
***Bəndəni hansı gözlə görəcəksən?***
***Allah, özüm gəlim?***
***Ya kimisə göndərəcəksən?***

Bu şeirdən sonra sualınızın cavabında nə deyə bilrəm ki?..

**- Klassik ədəbi nümunələrlə bu günümüzə söz demək olarmı? Və bu işdə qiraətçidən nə tələb olunur?**

- Əlbəttə, Füzuli, Nizami, Mirzə Cəlil, Sabir - heç vaxt köhnəlmir, onlar əbədidir. Sabirin hansısa əsərinin bu günlə səsləşmədiyini deyə bilməzsən.

***Pulsuz kişi insanlığı asanmı sanırsan?***
***Millət necə tarac olur-olsun, nə işim var?***

Belə laqeyd insanlar indi yoxdurmu? Var, əlbəttə, öz qınına çəkilən insanlar nə qədər desən var. Qiraətçidən də təbii ki, klassik ədəbiyyatı oxumaq üçün çox şey tələb olunur.

Bu yaxınlarda Milli Kitabxananın bir layihəsində Natavanın qəzəllərini səsləndirməliydim. Bir həftə lüğətləri qarşıma qoyub ərəb-fars sözlərinin tərcüməsinə baxdım. Natavanı oxumaq çətindir. Bədii qiraətçi klassik ədəbiyyatı oxumaq üçün əruzu, onun bəhrlərini bilməlidir. Sözlərin mənasını lüğətlə axtarıb tapmalıdır. Səs, ahəng, tembr hamısı vacibdir. Ümumiyyətlə, qəzəl oxumaq çətindir. Mən şəxsən əziyyət çəkirəm. Bu, bir etirafdı. Yəni əziyyət çəkəndən sonra oxuyuram, amma əziyyətlidir.

**- Zülfiyyə xanım, mən səni istər vaxtilə çalışdığın ADMİU-da, istərsə də digər mədəniyyət tədbirlərində çıxış edən, alqışlarla qarşılanan görmüşəm. Ümumiyyətlə, çoxillik fəaliyyətin dövründə qarşısında çıxış etdiyin auditoriyalardan hədsiz razı qaldığın, yaxud məyus olduğun məqamlar olubmu? Və özlüyündə bunların səbəbini nədə görmüsən?**

- Əlbəttə, kifayət qədər razı qaldığım, eləcə də narazı qaldığım yerlər, məkanlar, tədbirlər olub. Bilirsiz, bu kontingent məsələsidi. Bir dəfə böyük səlahiyyətli nazirliklərdən birinin tədbirində olduq. Mən uzun illər o tədbiri unuda bilmədim. Oranın əməkdaşları gərgin işdən sonra Azərbaycan musiqisini, Azərbaycan poeziyasını elə diqqətlə dinləyirdilər ki... Bunu sözlə ifadə etmək çətindir. Bu, mənəviyyat məsələsidir. Poeziyaya, torpağa, Vətənə bağlılıq, musiqiyə sevgi hər bir insanın fərdi qəbul edəcəyi bir hissiyyatdır. Ümumilikdə götürəndə, geniş dinləyici kütləsi istedadlı qiraətlə təqdim edilən poeziyanı sevir.

**- Qiraətçinin radio dalğalarından çıxışları ilə ekrandakı çıxışı arasında fərq olmalıdırmı?**

- Mən eyni şövqlə, eyni ehtirasla, eyni həvəslə gedirəm, istər televiziyaya, istər radioya. Sadəcə vizuallıq var. Görüntü. Radioda ayağımı-ayağımın üstünə aşırıb danışa bilərəm. Çünki dinləyici məni görmür, eşidir. Televiziyada isə fərqlidir. Tamaşaçıya, ətrafdakı insanlara ehtiram, hörmət olmalıdır. İstər danışıqda, istər hərəkətlərində, üz ifadələri, mimikalarda.

**- Kliplə aran necədi? Hansısa bədii parçanı klipə çəkdirmək fikrin varmı?**

- Əlbəttə, sadəcə, imkanım yoxdu. Maddi imkanım olsa beynimdə bir layihə var, onu həyata keçirəcəm inşallah. Allah qismət eləsə, laçınlı şairimiz İlham Qəhrəmanın "Laçınla Şuşanın söhbəti" şeiri var. Məni çox düşündürür bu şeir. Bir köməyim olsa mütləq o layihəni həyata keçirəcəm. Peşəkar səviyyədə.

**- Son çıxışların barədə nə deyə bilərsən?**

- Dinləyici auditoriyasında sonuncu çıxışlarım çox maraqla qarşılanıb. Birində siz olmusuz. Ondan öncə Ankarada baş tutan Türksoyun və Mədəniyyət Nazirliyinin birgə layihəsi olan "M.P.Vaqif-300" adlı tədbirdəki çıxışım deyilənlərə görə yaxşı alınıb. Özümü tərifləməyə məcbur etməyin məni !

**- Bəi qiraət dediyimiz o azman nəhrə baş vuran gənc qiraətçilərə nələri tövsiyə edərdin?**

- Hə bax, yaralı yerimə toxunduz İntiqam müəllim. Heç kəsin qəlbinə dəyməmək üçün ümumi danışacam. Düşünürəm ki, sözdən yana insanın ruhu titrəməlidir. Bu ruhun titrəyişindən söz yaranır. Zənnimcə, dramaturgiya şeirin özündədir. Ona görə də şeir söyləyən aktyorlar, gənc bədii qiraətçilər mətni nə cızığından çıxarsınlar, nə də ona artıq bəzək-düzək vurub süni nəfəs verməsinlər. Ürəklərini işlətsələr, daxili motivasiya onların içərisində olsa, çox təbii, inandırıcı sənət üzə çıxara bilərlər.

**- Zülfiyyə xanım, son olaraq bu günkü fəaliyyətin, məşğuliyyətin barədə bilmək istərdim. Mən bildiyimə görə uzun illər işlədiyin sənət ocağından, ADMİU-dan ayrılmısan.**

- Bəli, hazırda C.Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında fəaliyyətimi aktrisa kimi davam etdirirəm. Universitetdən ayrılmağımın səbəbi bu günə qədər mənə də qaranlıqdır. Çünki mən Ortaq Türk mədəniyyəti ilə bağlı İtaliyada keçirilən bir konfransda iştirak edirdim. Ölkədən kənardaydım. Konfransda iştirak edəndən sonra telefonuma mesaj gəldi ki, sizin dərsləriniz ləğv olundu. Bəlkə də zaman gələcək mən bu haqda ətraflı danışacam. Amma indi susmağa üstünlük verirəm. Çünki Universitet mənim doğma məkanımdı. 17 il həyatımın ən gözəl məqamlarını orda yaşamışam. Orda xoşbəxtliyimi tapmışam. Gözəl balalarım dünyaya gəlib. Ona görə Universitet haqda başqa söz deməyə dilim gəlmir.

**- Zülfiyyə xanım, bu günlər sənin dünyaya göz açdığın günlərdir. Harda olmağından asılı olmayaraq, yaşadığın ömür könlüncə olsun.**

- Çox dəyərli, İntiqam müəllim. mən sizi elə həmin o doğma Universitetdən tanımışam. Sizin səmimiyyətiniz, sizin zəkanız, sizin düşüncəniz mənə həmişə doğma olub. Bu söhbətimiz üçün, ürəyimin bəzi gizlinlərini açmaqda yardımınıza görə sizə sonsuz təşəkkürlərimi bildirirəm.Qarşımda mikrofon olsaydı bir gözəl şeirlə söhbətimizə yekun vurardım. Eybi yox, qoy qalsın dinləyicilərimin. tamaşaçılarımla üzbəsurət görüşlərimdən birinə. Var olasız həmişə.